Şəfiqə Nəcəfova46

# MÜASİR DÜNYA ƏDƏBİYYATININ PROBLEMLƏRİ VƏ PERSPEKTİVLƏRİ

Giriş. Çağdaş ədəbi prosesin problemlərini araşdırmazdan öncə onun zaman sərhədlərini müəyyənləşdirmək lazımdır. Adətən müasir ədəbiyyat deyərkən, Sovetlərin dağılmasından sonra yaranan ədəbi-bədii mətnlər nəzərdə tutulur. Bəzi mənbələrdə dəqiq tarix 1985-ci ildən sonrakı ədəbi proses göstərilir. Əlbəttə, XXI əsrin birinci onilliyinin sonunda XX əsrin 80-ci illərinin sonlarında yaranmış ədəbiyyatı müasir ədəbiyyat adlandırmaq bir qədər qəribə səslənə bilər. Amma həmin dövrdən sonra yaranan ədəbiyyatın ümumi cəhətlərini, bu tarixin təkcə ictimai-siyasi deyil, həm də ədəbi-bədii həyatda bir çox dəyişikliyə səbəb olduğunu nəzərə alarsaq, belə bölgünün mümkünlüyünü qəbul etməli və bu ədəbiyyatın özünəməxsus cəhətlərinin öyrənilməsinin vacibliyini etiraf etməliyik.

Qeyd etdiyimiz kimi, 1985-ci il ictimai-siyasi həyatda yenidənqurma prosesinin işə düşdüyü zaman olduğu kimi, həm də ədəbiyyatda yeni mövzuların yetişdiyi, qələm əhlinə nisbi azadlığın verildiyi, senzura qılıncının mülayimləşdiyi bir dövrdür. Artıq yazıçılar indiyədək müraciət etməyə ehtiyat etdikləri mövzuları (istər siyasi, istərsə də məişət səviyyəsində), obrazları ədəbiyyata gətirirlər. Əvvəlki illərdən fərqli qəhrəmanlar yetişməyə başlayır, bu qəhrəman indiyədək ədəbiyyata gətirilməyən meydan fəadisi də ola bilər, uzun illər narkomaniya adlı ölümdən əziyyət çəkən gənc də ola bilər, bütün həyatını cəmiyyətin dibində keçirən qadın da ola bilər və s.

Bu dəyişikliklər ədəbi prosesə yeni ədəbi cərəyanların daxil olmasına da rəvac verir. Ötən əsrin 70-ci illərində modernizmin ədəbiyyata daxil edilməsi keyfiyyətcə yeni bir ədəbiyyatın yaranmasına səbəb olur. İctimai-siyasi durumun hələ də sosializm realizmi tələb etdiyi zamanda – 60-70-ci illərdə belə ədəbiyyat açıq şəkildə yayıla bilmir və çox zaman senzuranın qurbanına çevrilir. Çünki buradakı, yəni modernist ədəbiyyatdakı eksperimentlər, mürəkkəb yazıçı təhkiyəsi, dil və üslub xüsusiyyətləri sosializm realizminə alışmış cəmiyyətdə dərhal qəbul edilə bilməzdi. Yuxarıda da qeyd etdiyimiz kimi, senzura buna imkan verməzdi. Amma 80-ci illərin sonlarında buna uyğun və rahat zəmin tapıldı. Bəzən isə işə “samizdat” qatışmağa başlayır. Müəyyən zaman keçdikdən sonra isə yeni keyfiyyətli ədəbiyyatın nəşri və əsərlərin ildırım surəti ilə yayılması, hətta bpyük tirajların bir günə satılması cəmiyyətin yeni ədəbiyyata necə “təşnə” olduğunun göstəricisinə çevrilir.

Müasir dünya ədəbiyyatına verilən təriflər də birmənalı deyildir. Məsələn, görkəmli ədəbiyyat tarixçisi, professor Andrey Nemzer haqqında danışdığımız dövrü belə səciyyələndirir: “XX əsri sonu ədəbiyyatın “qızın onilliyi” adlana bilər” (1, 55). Çağdaş rus ədəbi tənqidinin ən öndər simalarından biri Yevgeni Şlkovski müasir ədəbiyyatı “evsiz-eşiksiz ədəbiyyat” adlandırırdı (2). Və ya XX əsrin sonu – XXI əsrin başlanğıcındakı ədəbi proses “qəribəliklərlə dolu və orijinal” hesab edilir və ilbəil bu orijinallığı və qəribəliyi daha artırdığı göstərilir (3, 29).

Postsovet adlandırdığımız məkanda postsovet ədəbiyyatından danışan tədqiqatçıların bölgülərində XX əsrin 80-ci illəri xüsusi bölgü qrupuna daxil olur. Məsələn, belə maraqlı bölgülərdən biri tədqiqatçı İ.Nekrasova tərəfindən təqdim edilmişdir. Buraya ümumiyyətlə, Sovet ədəbiyyatı yarandığı gündən süquta uğrayan günədək xronoloji ardıcıllıqla daxil edilmişdir (3, 31).

XX əsrin əllinci illərində həmin dövr üçün cəsarətli çıxışlardan biri V.Pomerantsev tərəfindən edilir. 1953-cü ildə Xruşov “ottepel”inin – “mülayimləşmə”sinin ədəbiyyata təsirini ədəbi prosesdə “mülayimləşmə” dövrü kimi məhz Pomerantsev xarakterizə edir (4). Doğrudan da, çağdaş dönəmdə “altmışıncılar” adlandırdığımız nəslin ədəbi-bədii yaradıcılığı məhz bu mülayimləşmə nəticəsində mümkün ola bilmişdir. Təəssüf ki, bu mülayimləşmə ictimai-siyasi həyatda durğunluq dövrü ilə əvəzləndiyi kimi, ədəbiyyatda da bir durğunluq dövrünə keçidi şərtləndirmiş olur. Bu dövrü dünya ədəbiyyatında staqnasiya dövrü də adlandırırlar. Bu dövr iyirli idən artıq bi zamanı əhatə edir və bu zaman yaranan ədəbiyyatı şərti olaraq üç yerə bölmək olar. Bu bölgü yaranan ədəbi-bədii mətnlərin keyfiyyəti və məzmunu ilə bağlı aparılır. Beləliklə,

birinci ədəbiyyat dövlət sifarişi ilə yaranan ədəbiyyatdır.

ikinci ədəbiyyat yazıçının istəyi və maraqları ilə yaranan ədəbiyyatdır ki, çox zaman gizli şəkildə yazılır və gizli şəkildə də yayılır.

üçüncü ədəbiyyat isə “kordon”dan o yana yaranan ədəbiyyatdır ki, dissident yazıçıların yaratdıqları bədii mətnlər buraya aid edilə bilər.

“Mülayimləşmə” dövrünün ədəbiyyatından sonra “yenidənqurma” dövrünün ədəbiyyatına start verilir. Haqqında danışdığımız dövr 1985-ci ildən başlayır və hardasa təqribən 90-cı illərin ortalarına qədər davam edir. Bu dövrün ən xarakterik xüsusiyyəti vaxtilə “itirilmiş” ədəbiyyatın yenidən geri qaytarılması oldu. Yəni dissident ədəbiyyatına marağın artması, məlum səbəblərdən qadağan edilmiş müəlliflərə və onların əsərlərinə yenidən müraciət, onların yüksək tirajla nəşri bu dövrə təsadüf edir. Sadəcə bir misal - Soljenitsinin əsərlərinin yüksək tirajla nəşrini göstərmək kifayətdir ki, dövrün dolğun mənzərəsi yaradılmış olsun. Bundan əlavə, Bulqakovun romanları, Axmatovanın şeirləri də vaxtilə “itirilmiş” və 80-ci illərdə gedən ədəbi prosesdə “qaytarılmış” mətnlər sırasındadır.

Həmin dövrün ədəbiyyatını səciyyələndirən başqa bir cəhət ədəbiyyata yeni mövzuların, fərqli qəhrəmanların və fərqli məkanların gətirilməsi oldu (bu, əslində sağlam olan insanların salındığı dəlixana da ola bilər, minlərlə insanın azadlıq arzusu ilə yığıldığı meydan da).

Bədii nəsrin lirikaya və ümumiyyətlə, nəzmə nisbətən irəlidə getməsi və inkişaf etməsi də xarakterik cəhətdir. Bu dövrdə ədəbiyyatda maraqlı bir prosesin də şahidi olmaq mümkündür. Eyni zamanda üç ədəbi cərəyan paralel olaraq mövcud olur və inkişaf edir; bunlar realizm, modernizm və postmodernizmdir.

Realizm ədəbi cərəyanı üçün aşağıdakılar xasdır:

Reallığın ağlabatan və adekvat şəkildə təqdimi və təsviri;

Qəhrəmana fərqli və xüsusi münasibət. Çünki realizm qəhrəmanı cəmiyyət və düşdüyü mühitə uyğunlaşmış adamdır.

Xeyirlə şərin arasında qəti sərhədlərin çəkilməsi;

İdelaın dəqiq müəyyən edilməsi;

Qəhrəmanların nitqinin səlisliyi;

---

46 Filologiya üzrə fəlsəfə doktoru, dosent. Sumqayıt Dövlət Universiteti. najafovash@mail.ru
F

Alt mənaların mövcud olmaması;
Realist təsvirlərin üstünlüyü;
Ənənələrə sadiqlik;
Detalların qabardılması və s.

Müasir dövr dünya ədəbiyyatındakı realizm daha çox modernizmə meyl edən bir ədəbi cərəyan sayılır. Hətta bir çox tədqiqatçıların fikrincə, müasir dövrdə yeni tip mətnlərin yaranması prosesi gedir - bu mətnlər realizmin və modernizmin ən yaxçı cəhətlərinin özündə ehtiva edir. Bu fikir daha çox XX əsrin əvvəllərində Y.Zamyatin tərəfindən irəli sürülən sintetizm ideyası ilə səsləşir. Müəllifin fikrincə, bu mətnlərdə "realizm mikroskopu" ilə "modernizm tepeskopu" birləşir. "Realizm mikroskopu" dedikdə - realizmin detallara diqqəti yönəltməsi və konkretliyə meyl etməsi nəzərdə tutulursa, "modernizm teleskopu" anlayışı altında ümumiyyətlə, mövcudat və bütün kainat haqqında mülahizələrin irəli sürülməsi başa düşülür (5).
Çağdaş realizmin bir neçə tematik istiqamətləri mövcuddur. Bunlar əsasən, dini tematika və bədii publisistikadır. Birinci (yəni dini tematika) ona görə marağa səbəb olur ki, dini mövzulara müraciət əvvəlki dövrlərdə ictimai-siyasi səbəblərdən mümkün deyildir. İkinci halda isə bədii mətnlə publisistik mətnlərin arasındakı sərhədin pozulmasından söhbət gedir.
Müasir dünya ədəbiyyatından qadın nəsri qırmızı xətlə keçir. Gender tədqiqatlarının artmağa başladığı çağdaş dönəmdə ədəbiyyatda da gender tematikasının və gender problematikasının yaranma prosesi həyata keçir. Bu zaman qadın nəsri yeni bir ədəbi hadisə kimi meydana çıxır. Qadın nəsri – qadıların qadınlar haqqında yaratdığı bədii mətnlərdir. Üslubi baxımdan qadın nəsri realist və ya postrealis ola bilər. Bu, yazıçının fərdi dünyabaxışından və təsvir etdiyi hadisələrə münasibətindən irəli gəlir. Amma diqqətlə təhlil etdikdə, söyləmək mümkündür ki, qadın nəsri daha çox realizmə meyl edir və belə ədəbi mətnlərdə ailə-məişət təsvirləri, məişət problemləri, ənənəvi ailə münasibətləri təsvir olunur. Əgər qadın nəsrinin yaradıcısı ötən əsrin səksəninci illərində İ.Qrekova və bu istiqamətdə ilk əsər "Dul gəmisi" sayılırsa (6), Azərbaycan ədəbiyyatında bu nəsrin ən görkəmli nümayəndəsi Afaq Məsuddur.
Modernizmə gəlincə isə, bu, aşağıdakı keyfiyyətlərlə səciyyələnən ədəbi-bədii metoddur:
modernizmdə dünya artıq mənəvi dəyərlərini itirmiş bir məkan kimi təsəvvür edilir;
ideal artrıq itirilmiş, keçmişdə qalan unudulmuş bir məfhum kimi qəbul edilir;
müasir cəmiyyətlə müqayisədə keçmişin dəyərlərinin daha qiymətli olması qəbul edilir;
modernist mətndə qəhrəmanlar haqqında söhbət məişət səviyyəsində deyil, ümumiyyətlə, kainat səviyyəsində aparılır;
modernist məntdə qəhrəman işarə kimi təqdim edilir;
modernist mətnin strukturu da mürəkkəb olur, "mətndə mətn" kimi düşünülür və s.
Modernizmin meydana gəlməsi ədəbi-bədii mühitdə - fəlsəfədə, estetikada, ədəbiyyatda gedən böhranla xarakterizə olunur.
Modernist ədəbiyyatı isə, öz növbəsində, mənbələrdə iki istiqamətə ayırırlar:
Şərti-metaforik nəsr
Kinayəli avanqard
Hər iki istiqamət ədəbiyyatda 60-cı illərin sonu yaranmış, 70-ci illərdə gənc ədəbiyyatının tərkib hissəsinə çevrilmiş, yalnız 90-cı illərin sonu dünya ədəbiyyatında ayrıca bir istiqamət kimi tanınmışlar. Şərti-metaforik nəsrdə
Çağdaş dövr ədəbi prosesin səciyyəvi xüsusiyyətlərindən biri də "sərt realizmin" meydana gəlməsidir. Modernist ədəbiyyatın yuxarıda sadaladığımız bir çox cəhətləri məhz "sərt realizm" mətnlərində özünü göstərir.
Şərti – metaforik nəsrin ən əsas janr özünəməxsusluğu orada antiutopiyanın işlənməsidir. Antiutopiya dedikdə, aşağıdakıları ehtiva edən bədii mətnlər nəzərdə tutulur:
antiutopiya hər zaman utopiyaya zidd mövqedə dayanır;
antiutopiyanın öz problematikası və mövzu dairəsi olur, burada insan və kollektiv, şəxsiyyət və cəmiyyət qarşı-qarşıya dayana bilər;
antiutopiyada şəxsiyyət hər zaman tarixini və ictimaini üstələyə bilir;
antiutopiyada "mən" və "biz"in konflikti ön sırada olur;
antiutopiyanın özünəməxsus xronotopu var: belə bədii mətnlərdə hadisələr iki zamanda cərəyan edir – kulminasiya nöqtəsi olan hadisəyə qədər, bu həm inqilab ola bilər, həm təbii fəlakət – və bu hadisədən sonra; məkana gəlincə isə, belə mətnlərdə məkan məhdudiyyəti olur.
Kinayəli avanqard – çağdaş modernizmin ikinci istiqamətidir. Belə mətnlərdə bütün müasirlik kinayəli şəkildə rədd edilir.
Postmodernizm isə çağdaş ədəbiyyatın ən qabaqcıl metodu kimi XXI əsrin bütün yenilikləri ilə hesablaşır və məhz bu yeniliklər bəzən ədəbiyyatın problematikasını müəyyən edir. Belə ki, elmi-texniki tərəqqi, virtual reallığın yaranması bir qisim yeni mövzular yaradır:
bu əsərlərdə dünya böyük bir xaos kimi təsvir edilir, bu dünyada heç bir norma mövcud deyildir;
bu əsərlərdə təsvir olunan dünyada reallıq saxta reallıqdır;
bu əsərlərdəki dünyada heç bir mənəvi dəyər yoxdur;
bu mətnlərdə intertekstuallıq vardır və s.
Nəticə. Beləliklə, müasir dünya ədəbiyyatında mövcud olan tendensiya və istiqamətləri ümumiləşdirərək, bu ədəbiyyatın qarşısında duran problemlərini də belə müəyyən edə bilərik: əvvəla, çağdaş dünya insanı ədəbiyyatın sərhədlərini aşa bilmir, və ya aşmaq istəmir. Etiraf edək ki, hal-hazırda kitab və onunla bir yerdə ədəbiyyatı arxa plana keçmiş, insanlar mənəvi və psixoloji inkişafı elmi-texniki tərəqqinin "uğurlar"ına qurban verirlər. İnsanları oxunmuş kitabların keyfiyyəti deyil, sayı maraqlandırır, bu halda ədəbiyyatın qavranılmasından söhbət gedə bilməz.
Müasir dünya ədəbiyyatının problemlərindən biri də janr "kasıblığı"dır. Müasir ədəbiyyat bir çox janrların və xüsusilə süjetlərin sıradan çıxması ilə xarakterizə olunur.
Nəhayət, müasir dünya ədəbiyyatında "psevdoyazıçılar" üzə çıxır ki, onların yaratdıqları ədəbiyyat da "psevdoistedad"ın təzahürü olur.

ƏDƏBİYYAT

Немзер А. Литературное сегодня. Москва: Новое литературное обозрение, 1998, 432 стр.

Шкловский Е. Испытание правдой: Литература и перестройка. Москва: 1990
Некрасова И. Современный литературный процесс и новые подходы к его изучению // Известия Самарского научного центра Российской академии Наук. Социальные, гуманитарные, медико-биологические науки, т.18, № 2, 2016
Померанцев В. Об искренности в литературе // Новый мир, 1953, № 12, с. 7–24
Замятин Е. Избранные произведения. Москва: Советский писатель, 1989, 768 с.
Грекова И. Вдовий пароход. Москва: Эксмо-пресс, 2002, 689 с.

Açar sözlər: ədəbiyyat, modernizm, postmodernizm, mətn, ədəbi cərəyan
Ключевые слова: литература, модернизм, постмодернизм, текст, литературное течение
Keywords: literature, modernism, postmodernism, text, literary trend

Проблемы и перспективы современной мировой литературы

Резюме

В статье исследуются проблемы современной мировой литературы. Автор раскрывает полнуй картину современной мировой литературы, останавливается на основных литературных направлениях этой литературы, таких как реализм, постреализм, модернизм, постмодернизм и т.д. В начале изучаются основные характерные особенности этих литературных течений, события обуславливающие их формирование. В заключении всего вышесказанного автор раскрывает все проблемы мировой литературы, обобщает их.

Problems and prospects of the modern world literature

Summary

In the article the problems of the modern world literature are investigated. The author shows the whole picture of the modern world literature, stops on the main literary directions of this literature, such as realism, post-realism, modernism, postmodernism, etc. In the beginning the main characteristics of these literary trends, events causing their formation are studied. In the conclusion of the article the author explains all problems of the world literature and generalizes them.

Rəyçi: dos.Şakir Albalıyev